Ədəbiyyat QƏZETİ

# Xaqani QAYIBLI - 60



Hörmətli Xaqani müəllim!

Sizi - tanınmış şair, tərcüməçi, dilçi alim, türkoloq və ictimai xadimi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1 mart 1964-cü ildə Gürcüstanda - qədim Qaraçöp mahalının Ləmbəli kəndində dünyaya göz açmısınız. Səkkizillik məktəbi doğma elinizdə, orta ixtisas məktəbini Azərbaycanın Qazax rayonunda fərqlənmə ilə bitirmisiniz. 1989-cu ildə Azərbaycan Yazıçılar Birliyi tərəfindən M.Qorki adına Ədəbiyyat İnstitutuna, həmin ilin sonunda Azərbaycan Təhsil Nazirliyinin xətti ilə Yazıçılar Birliyi nəzdindəki Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi tərəfindən Estoniyanın Tartu Universitetinə göndərilmisiniz. Eyni müddətdə həm filologiya, həm də jurnalistika fakültələrində təhsil alaraq Tartu Universitetini eston dilində bitirən ilk azərbaycanlı tələbə olmusunuz. 2004-cü ildə eyni zamanda ekstern yolu ilə Ankara Universitetini bitirmisiniz.

1987-ci ildən Azərbaycan, Türkiyə, Gürcüstan və Estoniya mətbuatında vaxtaşırı şeir və publisistik yazılarınızla çıxış etmisiniz.

1997-ci ildən Estoniya prezidentinin şəxsi tərcüməçisi, 1998-ci ildən Tartu Universiteti Türk Dili Mərkəzi müdirisiniz. "Eston və türk dillərində feil quruluşlarının müqayisəsi" adlı elmi işiniz ilə dünya dilçiliyində Fin-Uqor və Türk-Tatar dilləri arasındakı qohumluq əlaqələrini araşdıran ilk azərbaycanlı alimsiniz.

Əsərləriniz eston, gürcü, rus, latış, alman dillərinə və tatar, qazax, qaqauz, Türkiyə türkcəsinə çevrilib. Müxtəlif illərdə 40-dan çox ictimai-siyasi, tarixi, elmi-mədəni məqaləniz, 5 kitab və 1 monoqrafiyanız nəşr edilib. Bir çox beynəlxalq simpozium və konfransların məruzəçisi və iştirakçısı olmusunuz.

Siz eyni zamanda Azərbaycanı xaricdə təmsil edən görkəmli ictimai xadimsiniz.

Estoniya-Azərbaycan cəmiyyətinin sədri, Estoniya-Türkiyə Mədəni Əlaqələr cəmiyyəti İdarə Heyətinin üzvü, Estoniya Akademik Şərqşünaslar cəmiyyətinin üzvü, Estoniya Jurnalistlər Akademiyasının üzvü, Estoniya Ana Vətən Partiyasının üzvü, Dünya Azərbaycanlıları Konqresi İdarə Heyətinin üzvü və sədr müavini, Tartu Universiteti Türk Dili Mərkəzi "Ərgənəkon" yayınları redaksiya heyətinin sədri, "Ulduz" jurnalı redaksiya heyətinin üzvüsünüz.

İndiyəcən "Sənsiz ömrün bir ili" (1999), "Qırx yaşım qırx sözüm" (2004), "Yenə canım söz gəzir" (2014) adlı şeir kitablarınız və "Türkcə-estonca, estonca-türkcə turist sözlüyü" (2000), görkəmli türkoloq Aydın Məmmədovun xatirəsinə ithaf etdiyiniz "Türkcə-estonca, estonca-türkcə danışıq kitabçası" (2004) elmi kitablarınız nəşr edilib.

Siz tərcüməçi olaraq da geniş fəaliyyət göstərirsiniz. Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", Kamal Abdullanın "Kim dedi ki, Simurq quşu var imiş!", Vaqif Səmədoğlunun "Mən burdayam, İlahi", Tuna Kiremitçinin "Dualar qalıcıdır", Bəhlul Abdullayevin "Hal arvadı" kitablarını və Anarın "Mən, sən, o və telefon" əsərini eston dilinə tərcümə etmisiniz.

İctimai xadim olaraq çoxşaxəli fəaliyyətiniz həm Estoniya hökuməti, həm də dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. 2000-ci ildə Türkiyə ilə Estoniya arasında diplomatik və mədəni əlaqələrin inkişafında göstərdiyiniz xüsusi xidmətlərinizə görə fəxri Estoniya vətəndaşlığı almısınız; Azərbaycan Respublikası prezidentinin 21 aprel 2022-ci il tarixli sərəncamı ilə Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında "Tərəqqi" medalı ilə təltif edilmisiniz.

Hörmətli Xaqani müəllim!

Sizi yubileyiniz münasibəti ilə bir daha təbrik edir, möhkəm cansağlığı və yaradıcılıq uğurları diləyirik!

**Azərbaycan Yazıçılar Birliyi**